# 1969-1982-Cİ İLLƏRDƏ HEYDƏR ƏLİYEVİN CƏNUBİ QAFQAZDA ERMƏNİLƏRİN ƏRAZİ-SƏRHƏD İDDİALARINA QARŞI MÖVQEYİ

**Nəsrin Abdullayeva**
*Bakı Dövlət Universiteti*
*Qafqaz xalqları*
*tarixi kafedrasının doktorantı*
*nesrin.abdullayeva99@mail.ru*

## HAYDER ALIYEV IN SOUTH CAUCASUS IN 1969-1982 POSITION OF ARMENIANS AGAINST TERRITORIAL-BORDER CLAIMS

**Nasrin Abdullayeva**

**Summary**

The 70-80s of the 20th century is a period characterized by its uniqueness in the socio-political, socio-economic and cultural development of Azerbaijan. The events carried out during this period are related to the name of National Leader Heydar Aliyev. The Great Leader successfully coped with a number of difficult and complex tasks as a very capable, experienced head of state and a wise political figure. During that period, a number of important steps aimed at protecting the national interests of our country were taken in Azerbaijan in all fields. It was possible as a result of the leadership and principles of the national leader.

The article talks about the failure of the work carried out in 1969-1982 in the direction of the baseless claims of the hated Armenians against the Azerbaijani lands, the falsification of history as part of the Armenian propaganda, the creation of a fictitious Armenian history, and the presentation of Azerbaijanis as a savage nation, as a result of Heydar Aliyev's principled position. In 1969-1982, when Heydar Aliyev led Azerbaijan during the Soviet era, he paid great attention and care to Karabakh, and always held Azerbaijan's national interests high. During this period, thanks to his determination, Armenian claims always failed.

**Keywords:** Heydar Aliyev, South Caucasus, Soviet empire, territory-border issues, Karabakh, territorial claims

## 1969-1982-Cİ İLLƏRDƏ HEYDƏR ƏLİYEVİN CƏNUBİ QAFQAZDA ERMƏNİLƏRİN ƏRAZİ-SƏRHƏD İDDİALARINA QARŞI MÖVQEYİ

**Nəsrin Abdullayeva**

**Xülasə**

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında XX əsrin 70-80-ci illəri özünəməxsusluğu ilə səciyyələnən bir dövrdür. Bu dövrdə həyata keçirilən tədbirlər məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər çox bacarıqlı, təcrübəli dövlət başçısı və müdrik siyasi xadim kimi bir sıra çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Həmin dövrdə Azərbaycanda bütün sahələrdə ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm addımlar atılmışdır. Ümummilli Liderin rəhbərliyi və prinsipiallığı nəticəsində mümkün olub.

**Açar sözlər:** Heydər Əliyev, Cənubi Qafqaz, Sovet imperiyası, ərazi-sərhəd məsələləri, Qarabağ, ərazi iddiaları

## ПОЗИЦИЯ ГЕЙДАРА АЛИЕВА НА ЮЖНОМ КАВКАЗЕ. ПРОТИВ ТЕРРИТОРИАЛЬНЫХ ПРЕТЕНЗИЙ АРМЯН В 1969-1982 ГГ

**Насрин Абдуллаева**

**Аннотация**

70-80-е годы 20 века – период, характеризующийся своеобразием общественно-политического, социально-экономического и культурного развития Азербайджана. Мероприятия, проведенные в этот период, связаны с именем общенационального лидера Гейдара Алиева. Великий Вождь успешно справился с рядом трудных и сложных задач как очень способный, опытный глава государства и мудрый политический деятель. В этот период в Азербайджане во всех сферах был предпринят ряд важных шагов, направленных на защиту национальных интересов нашей страны. Это стало возможным благодаря лидерству и принципиальности общенационального лидера. Как только Гейдар Алиев был избран главой Азербайджанской ССР 14 июля 1969 года, он выдвинул на первый план территориальные вопросы в Карабахе, поставил интересы азербайджанского народа превыше всего, отверг давление и решительно препятствовал армянскому националисты.

**Ключевые слова:** Гейдар Алиев, Южный Кавказ, Советская империя, территориально-пограничные вопросы, Карабах, территориальные претензии

**Giriş.** Ermənlər Azərbaycan torpaqlarına əsassız ərazi iddiaları irəli sürürdülər. Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi Qarabağda ərazi məsələlərini ön plana çəkmiş, Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutaraq təzyiqləri rədd edib erməni millətçilərinin qarşısını qətiyyətlə almışdı.

Heydər Əliyevin Azərbaycana sovet dövründə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, Azərbaycan milli maraqlarını hər zaman uca tutmuşdur. Bu dövrdə onun qətiyyəti sayəsində erməni iddiaları hər zaman iflasa uğramışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, o cümlədən sosial-iqtisadi və mədəni həyatında milli intibah dövrü başlamışdır. 1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası bunu deməyə əsas verir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr respublikamızın müstəqil dövlət quruculuğuna aparan yol olmuşdur. Sovet dövründə erməni millətçiləri imkan düşdükcə Azərbaycan torpaqlarına əsassız ərazi iddiaları irəli sürürdülər. XX əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də anti-Azərbaycan təbliğatı geniş miqyas almışdı. 1965-ci il aprelin 23-də İrəvanda qondarma “erməni soyqırımı”nın 50 illiyi, quldur Andronikin isə anadan olmasının 100 illiyi təntənəli sürətdə qeyd edildi. Heydər Əliyev hələ Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı dəfələrlə alınmış və bu istiqamətdə qətiyyətli mövqe nümayiş etdirmişdi. Həmin dövrdə ermənilər tarixi saxtalaşdırılaraq uydurma erməni tarixinin yaradılması, azərbaycanlıların vəhşi bir millət kimi təqdim edilməsi istiqamətində müxtəlif məzmunlu kitabların yazılması, bu uydurmaların reallıq kimi qəsdən dərsliklərə salınması, bununla da planlarının növbəti mərhələsini həyata keçirmək məqsədilə erməni gəncləri arasında ifrat millətçiliyin və düşmənçiliyin təbliği ilə məşğul olurdular.

Heydər Əliyev 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova yazdığı məktubunda qeyd edirdi ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır. Bu vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilirdi. Məktubda yazılırdı ki, vərəqənin müəlliflərini tapmaq, eləcə də lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar cəzalandırılmışlar [2, s.108]. Həmin ildə Qarabağ regionunda 1200-dən artıq belə vərəqələr hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər tutulmuşdu. 1967-ci ilin əvvəllərində erməni millətçiləri milli zəmində qarşıdurma törətmək, azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsi və Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə iğtişaşlar törədirdilər. Əvvəlcədən hazırlanan

plana əsasən Qarabağda milliyyətcə erməni olan bir nəfər öldürülmüşdü. Planın ikinci mərhələsinə görə xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi kinoteatrın zalına girərək şübhəli şəxs kimi həmin prosesdə dindirilən 2 azərbaycanlını qətlə yetirmişdilər. Təqsirləndirilən digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Heydər Əliyev həmin məsələni araşdırmaq üçün Xankəndiyə getmiş və bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı [4, s.102]. XX əsrin 60-cı illərində erməni rəsmi dairələri və alimləri hətta XX əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxardıqdan sonra ərazi məsələsinə dair danışıqlar müzakirə obyektinə çevrilmişdi. 1967-ci ildə Ermənistan SSR-in millətçi dairələri DQMV-nin azərbaycanlı əhalinin yaşadığı məntəqələrin inkişafı üçün ayrılan vəsaitin bölünüb təsdiq olunmasına mane olmağa çalışırdılar. Ermənistan SSR-lə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul edilən qərarın 1969-cu il mayın 7-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən təsdiq edilməsi mərkəzi hakimiyyətin təzyiqlərinin nəticəsi idi [5, s.167].

Heydər Əliyev ermənilərin bu cəhdlərinin qarşısını almaq üçün qəti addımlar ataraq, elmi arayış hazırlatmış, sonra bu sənəd Azərbaycan KP MK Siyasi Bürosunda müzakirə edilərək bu iddiaların əsassız olması haqqında qərar qəbul edilmiş və SSRİ rəhbəri L.Brejnevə təqdim olunmuşdur. Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə DQMV-nin sosial-iqtisadi göstəriciləri Azərbaycan və Ermənistanın göstəricilərindən üstün olmuşdur [4, s.103]. Heydər Əliyevin prinsipial mövqeyi nəticəsində ermənilərin bu niyyəti baş tutmamışdır. Ümumiyyətlə, Ümummilli lider Heydər Əliyevin qətiyyətli mövqeyi və müdrik siyasəti hər zaman SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat etmiş və onların öz mənfur niyyətlərini həyata keçirmələri üçün ciddi bir maneə olmuşdur.

**İstifadə olunmuş əddəbiyyat siyahısı:**


1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr,1997-2013. 1-46 cildlər.
3. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
4. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu.Bakı, «Təhsil», 2004, 472 səh.
5. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, “Təhsil”, 2003, 504 s.
6. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr.Çoxcildli əsər. I-IV cildlər. Bakı, “Elm və Təhsil”, 2016-2020
7. Nəsibzadə N. Sərhədlər. “Elm” qəzeti, Bakı, 1989, 17 iyun
8. И.М.Гусейнова История народов Кавказа. Баку, 2018. 1248 с.
9. И.М.Гусейнова Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Монография. Баку, 2005. 502с.
10. С.О.Мустафаева.Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.) Баку, 2017, «Европа», 304 с.